# 525-ci qəzet

19 iyul 2012-ci il, cümə axşamı №127 (3683). Qiymıəti 20 qəpik

www.525.az


# Rəsmi Bakı və Ankara Qarabağdakı qanunsuz seçkini pislədi

## "QONDARMA "SEÇKİLƏR" ERMƏNİSTANIN İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRİN ANNEKSİYA EDİLMƏSİ SİYASƏTİNİ ÖRT-BASDIR ETMƏK MƏQSƏDİLƏ KEÇİRİLİR"



Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində sabah qondarma "prezident seçkiləri"nin keçirilməsi ilə bağlı bəyanat yayıb. XİN mətbuat xidmətindən verilən məlumata görə, bəyanatda bildirilir: "Erməni kütləvi informasiya vasitələrində yayılmış məlumatlara əsasən, Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində 19 iyul 2012-ci il tarixində qondarma "prezident seçkiləri"nin keçirilməsi planlaşdırılır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bununla bağlı bir daha təkrar edir ki, Ermənistan Respublikası Azərbaycanın ərazilərini işğal etmək və yerli azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti aparmaqla işğal edilmiş ərazilərdə qanunsuz rejim yaratmışdır. Qondarma "seçkilər" Ermənistanın işğal edilmiş ərazilərin anneksiya edilməsi və Azərbaycan ərazilərinin davam edən işğalının nəticələrini təşviq etmək məqsədi güdən siyasətini ört-basdır etmək məqsədilə keçirilir. Yerli azərbaycanlı əhalinin iştirakı olmadan və Azərbaycan Respublikasının müvafiq strukturları tərəfindən lazımı icazə verilmədən bu cür addım atılması Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəalarını və beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozur və beləliklə, heç bir hüquqi qüvvəyə malik deyil. Legitim seçkilərin keçirilməsi yalnız Ermənistanın işğalçı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması, bölgədə həyatın normallaşdırılması, işğal edilmiş ərazilərdən qovulmuş azərbaycanlı əhalinin geri qayıtması və Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında dialoq və əməkdaşlığın bərpası üçün zəruri şəraitin yaradılmasından sonra mümkün olacaq. Azərbaycan Respublikası Ermənistan tərəfini heç bir perspektiv vəd etməyən qanunsuz addımlar əvəzinə öz silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmaqla bütün regionda davamlı sülh, təhlükəsizlik və inkişaf üçün yeni perspektivlər açmağa çağırır".

Türkiyə Xarici İşlər Nazirliyi də erməni separatçılarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində iyulun 19-da keçirəcəyi "prezident seçkiləri" ilə bağlı rəsmi açıqlama yayıb. APA-nın xəbərinə görə, açıqlamada deyilir: "Ermənistan işğalı altında olan Azərbaycanın Yuxarı Qarabağ bölgəsində beynəlxalq hüquqa və beynəlxalq ictimaiyyətin gözləntilərinə zidd olaraq "prezident seçkisi" keçiriləcəyi bildirilir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT prinsiplərinin açıq şəkildə pozulması demək olan bu seçkilər Yuxarı Qarabağdakı qeyri-hüquqi mövcud durumu birtərəfli şəkildə legitimləşdirmə cəhdinin yeni bir təzahürüdür. Qarabağ ixtilafı Cənubi Qafqazda sülh, sabitlik və əməkdaşlığın bərqərar olmasının qarşısında əngəl olmağa davam etməkdə və bölgə ölkələri arasında mehriban qonşuluq və əməkdaşlığa şərait yaradacaq iqlimin formalaşmasını əngəlləməkdədir. Problemin həllinə xidmət edən təşəbbüslərin davam etdirilməsi ilə paralel olaraq bölgədə tam və əhatəli normallaşma yönündə cəhdlərini müxtəlif platformalarda davam etdirməyə qərarlı olan Türkiyə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və siyasi birliyinin növbəti dəfə pozulması mənasına gələn bu əməli pisləyir. Türkiyə qeyri-legitim saydığı və heç bir hüquqi qüvvəsi olmayacaq bu "prezident seçkisi"nin nəticələrini tanımayacaq".

# Prezident VİP salonlarla bağlı sərəncam imzaladı



Prezident İlham Əliyev Azərbaycanın aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə ilə bağlı bəzi məsələlər haqqında sərəncam imzalayıb.

APA-nın verdiyi xəbərə görə, sərəncamda deyilir: "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "Heydər Əliyev" Beynəlxalq Aeroportunda, Gəncə, Naxçıvan beynəlxalq hava limanlarında və Yevlax hava limanında rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan prezidentinin 2003-cü il 23 oktyabr tarixli 1373 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 612, 2007, № 9, maddə 867, № 10, maddə 996; 2008, № 8, maddə 717, № 9, maddə 797; 2009, № 2, maddə 78, № 7, maddə 580, № 12, maddə 1043, 2010, № 5, maddə 443) 2012-ci il sentyabrın 1-dən ləğv edilsin".

Nazirlər Kabinetinə tapşırılıb ki, Azərbaycanın aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycanın vəzifəli şəxslərinin siyahısını iki ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan prezidentinə məlumat versin.

Azərbaycan hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin siyahısını Azərbaycan Xarici İşlər Nazirliyinin təklifləri əsasında iki ay müddətində təsdiq etməli və bu barədə dövlət başçısına məlumat verməlidir. Ölkə hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə qaydalarını iki ay müddətində təsdiq etsin və bu barədə prezidentə məlumat verməlidir.

# Yoxa çıxan əsgərimizin meyiti tapıldı



Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində açdığı atəş nəticəsində yaralandığı bildirilən milli ordumuzun hərbi qulluqçusu Orucov Elçin Rauf oğlunun axtarışı nəticə verib. APA-nın Qarabağ bürosunun xəbərinə görə, ərazi mütəmadi atəşə tutulduğundan neytral bölgədə vurulmuş Elçin Orucovu gündüz saatlarında axtarıb tapmaq mümkün olmayıb. Qaranlıq düşdükdən sonra isə əsgərin vurulub qaldığı yeri müəyyən etməkdə problemlər yaranıb. Yalnız srağagün onun həlak olduğu məlum olub və şəhid əsgərimizin meyiti hadisə yerindən götürülüb. Tərtər Rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılan Elçin Orucovun cənazəsi əvvəlcə onun xidmət etdiyi hərbi hissəyə gətirilib, oradan isə doğulduğu Seydimli kəndinə göndərilib. O, dünən torpağa tapşırılıb.

Allah rəhmət eləsin!

# "Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında" əsasnamədə dəyişiklik edilib

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb. APA-nın verdiyi xəbərə görə, Fərmana əsasən, "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"nin 7.4-cü bəndi aşağıdakı redaksiyada verilib: "Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın ali və orta ixtisas təhsili müəssisələri üçün müəyyənləşdirdiyi tələbə qəbulu planını elan edir və onun əsasında sənəd qəbulunu təşkil edir".

Azərbaycanın Nazirlər Kabinetinə üç ay müddətində prezidentin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlamaq və dövlət başçısına təqdim etmək tapşırılıb. Nazirlər Kabineti həmçinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin etməlidir. Eyni zamanda Nazirlər Kabinetinə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə beş ay müddətində prezidentə məlumat vermək və bu fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Azərbaycanın Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin etməli və bu barədə Azərbaycanın Nazirlər Kabinetinə məlumat verməlidir.

# Azərbaycan və Ermənistan XİN başçılarının növbəti görüşünün vaxtı açıqlandı

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü təxmini yeri və tarixi açıqlanıb. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair növbəti görüşü sentyabrın sonlarında BMT Baş Assambleyasının növbəti sessiyasının açılış mərasimi çərçivəsində baş tuta bilər. APA-nın məlumatına görə, bu barədə jurnalistlərə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirib. Onun sözlərinə görə, ATƏT-in Minsk Qrupunun həmsədrləri Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə əvvəlcə Avropa paytaxtlarından birində ayrıca görüş keçirməyi təklif ediblər. Bundan sonra isə sentyabrda Nyu-Yorkda xarici işlər nazirlərinin ikitərəfli görüşü baş tuta bilər.

# Ermənistan dinc durmur

Ermənistan silahlı qüvvələri cəbhə xəttində atəşkəs rejimini yenidən pozub. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Ermənistan ordusunun bölmələri iyulun 17-də və 18-nə keçən gecə Ağdam rayonunun Qaraqaşlı, Cəbrayıl rayonunun Mehdili, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli kəndləri yaxınlığındakı və Goranboy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşkəs rejimini pozublar. Düşmən cavab atəşi ilə susdurulub.

# "Azərbaycan daha çox avropalı turisti cəlb etmək istəyirsə, vizalar ləğv olunmalıdır"

***ALMANİYA SƏFİRİ:*** "ALMANİYA FEDERAL HÖKUMƏTİ ATƏT-İN MİNSK QRUPU VƏ AVROPA BİRLİYİ ÇƏRÇİVƏSİNDƏ MÜNAQİŞƏNİN DİNC YOLLA HƏLLİ ÜÇÜN GÖSTƏRİLƏN BÜTÜN CƏHDLƏRİ DƏSTƏKLƏYİR"

***Almaniyanın Azərbaycandakı səfiri Herbert Kvellenin APA-ya müsahibəsi***




**— Azərbaycanla Avropa Birliyi arasında "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsindəki əməkdaşlığı necə qiymətləndirirsiniz?**

— Almaniya "Şərq Tərəfdaşlığı" proqramının fəal tərəfdarlarından biridir. Şərq tərəfdaşlığı proqramı kimi layihə qəbul olunduğundan Aİ çərçivəsində əməyin paylanmasına müvafiq olaraq Aİ-nın xarici siyasət məsələləri üzrə xidməti Aİ adından konkret danışıqları həyata keçirir. AB ölkələri danışıqlardakı irəliləyişlər və ortaya çıxan problemlər barədə müntəzəm məlumatlandırılır. Mən danışıqlar prosesində ortaya çıxan istənilən qiymətləndirmə və gözləntilərin AB-Azərbaycan münasibətlərində üstünlük təşkil edən qarşılıqlı anlayış və etimad ruhunda həll olunacağı məsələsində nikbinəm.

**— İki ölkə arasında iqtisadiyyat, ticarət və enerji sahəsində əməkdaşlığın perspektivlərini, eləcə də "Nabucco" layihəsinin gələcəyini necə görürsünüz? Almaniya bu layihəyə kapital qoyacaqmı?**

— Almaniya ilə Azərbaycan arasında ikitərəfli ticarət əlaqələrinin gələcəyi parlaqdır. 2011-ci ildə qarşılıqlı ticarət dövriyyəsinin həcmində artım müşahidə edilib. Almaniya Azərbaycandan 1,5 milyard avrodan çox idxalat (əsasən neft), Azərbaycana isə 800 milyon avrodan çox ixracat gerçəkləşdirib. Əminəm ki, bu ilin martında Almaniya xaric işlər nazirinin Azərbaycana səfəri zamanı Bakıda ikitərəfli ticarət palatasının qurulması haqda əldə olunan razılıq Azərbaycanda alman yatırımlarının həcminin artmasına səbəb olacaq. Biz klassik "iqtisadi əməkdaşlığımız" olan və GİZ (Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti) tərəfindən həyata keçirilən konsultasiya işində, eləcədə KFW və DEG tərəfindən layihələrin maliyyələşdirilməsində pozitiv inkişaf görürük.

Enerji sahəsində Almaniya təbii qazla təminatını diversifikasiya etməkdə maraqlıdır və səbəblə "Cənub dəhlizi" çərçivəsindəki layihələri dəstəkləyir. Alman şirkətləri bir-biri ilə rəqabətdə olan RWE, "Nabucco", TAP layihələrinə kapital qoyublar və məndə olan məlumata görə, layihə 2013-cü ilin iyununa qədər seçiləcək.

**— Bu ilin may ayının əvvəllərində Azərbaycanla Almaniya arasındakı münasibətlərdə müəyyən gərginlik müşahidə olundu və Almaniya mətbuatında Azərbaycan əleyhinə yazılar dərc edildi. Bu durum nədən qaynaqlanırdı və münasibətlərə hələ də neqativ təsiri davam edirmi?**

— Mən sizə martın 15-də "Yeni Azərbaycan" qəzetində çap olunan və iki ölkə arasında diplomatik əlaqələrin 20 illiyinə həsr edilmiş məqaləmi oxumağı tövsiyə edirəm (Bu yazını səfirliyimizin saytında alman və azərbaycan dillərində tapa bilərsiniz). Yazının tarixi göstərir ki, gərginlik daha əvvəl başlayıb. Alman mətbuatında çıxan bu cür yazılar iki ölkənin və xalqın tarixi inkişaf mərhələləri və mentaliteti arasındakı fərqlərin işarəsi olaraq qəbul olunmalıdır. Azərbaycan hökumətini Almaniya mətbuatındakı Azərbaycan barədə neqativ yazıların arxasında Almaniya hökumətinin dayanmadığına inandırmaq asan olmadı. Buna baxmayaraq, hər iki ölkənin hökuməti belə razılaşdı ki, ikitərəfli münasibətlərin dostluq və etimad əsasında inkişafı hər iki ölkənin maraqları daxilindədir. Münasibətlərimizin əsası hələ Azərbaycana ilk alman miqrasiyasının gerçəkləşdiyi 1891-ci ildə qoyulub. Mən Azərbaycanın mədəni irsindən çox təsirlənmişəm, bunu Şəmkirdə və hazırda böyük bərpa işlərinin getdiyi Göygöldə müşahidə etmək olar.

**— Sizcə, Avropada, konkret olaraq İspaniya və Yunanıstandakı iqtisadi böhran AB-Azərbaycan əlaqələrinə necə təsir göstərə bilər?**

— Bəzi Avrozona ölkələrində borclarla bağlı böhran müşahidə olunur. Sadə dildə desək, bu ölkələr qazandıqlarından çox xərcləyiblər və hazırda borcların maliyyələşdirilməsi problemi ilə üzləşiblər.

Səh.3

# Korrupsiya faktı aşkar edilən dövlət qurumlarının adları açıqlandı

Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi bu ilin birinci yarısında ən çox korrupsiya cinayəti faktı aşkar edilən dövlət qurumlarının adlarını açıqlayıb. APA-nın məlumatına görə, idarənin rəisi Kamran Əliyev jurnalistlərə açıqlamasında bildirib ki, hesabat dövründə Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə bütün sahələr üzrə şikayətlər daxil olub. Daxil olan şikayətlər əsasında əhalinin sosial müdafiəsi sahəsi üzrə 20 şəxs barəsində 5 cinayət işi, təhsil sahəsində 7, təbiətin mühafizəsi sahəsində 5, yerli icra hakimiyyətləri ilə bağlı 5, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi ilə bağlı 2, bələdiyyələrlə bağlı 3, səhiyyə sahəsi üzrə 2, mənzil kommunal təsərrüfatı ilə bağlı 1, mədəniyyət və turizm sahəsi üzrə 5, rabitə sahəsi üzrə 1, nəqliyyat sahəsində 1, kənd təsərrüfatı sahəsi üzrə 5, banklarla bağlı 4, iqtisadi fəaliyyət sahəsi üzrə 3, polislə bağlı 3, özəl sahə ilə bağlı 17, prokurorluqla bağlı 2 cinayət işi istintaq edilərək baxılması üçün məhkəmələrə göndərilib.

K. Əliyev bir daha bəyan edib ki, respublikada korrupsiyaya qarşı mübarizə kampaniya xarakteri daşımır: "Korrupsiyaya qarşı mübarizə sahəsində dövlət səviyyəsində ciddi işlər görülür. Hansı vəzifədə və harada işləməyindən asılı olmayaraq korrupsiya cinayəti törədən şəxslərə qarşı tədbirlər davam etdiriləcək".

# İranda həbs edilən şairlərin qohumları ilə görüşünə razılıq verilib



Azərbaycanın Təbrizdəki Baş Konsulluğu İran tərəfindən həbs olunmuş Azərbaycan vətəndaşlarının qohumları ilə görüşünə razılıq almağa müvəffəq olub. Bu barədə jurnalistlərə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Abdullayev məlumat verib.

XİN rəsmisinin dediyinə görə, Azərbaycanın Təbrizdəki konsulu iyulun 15-17-də İran tərəfi ilə, o cümlədən Şərqi Azərbaycan vilayətinin ostandarı ilə bir neçə görüş keçirib. Görüşlər nəticəsində saxlanan azərbaycanlı şairlərlə qohumlarının görüşünə icazə verilməsi barədə razılıq əldə olunub.

"Görüşün detalları razılaşdırılır. Əsas odur ki, biz vətəndaşlarımızın öz qohumları ilə görüşünə razılıq ala bilmişik. Biz bu məsələni diqqətdə saxlamaqda davam edirik. İran tərəfi hələ də bizə vətəndaşlarımızın saxlanmasının səbəblərini rəsmi şəkildə açıqlamayıb".

Jurnalistlərə açıqlamasında XİN sözçüsü Dağlıq Qarabağda qondarma "seçkilərin" keçirilməsi məsələsinə də münasibət bildirib: "Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ regionunda qondarma "seçkilərin" keçirilməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanma prosesinə uyğun gəlmir, əksinə, bu, prosesə zərbədir". XİN-in rəsmisi bu addımın mövcud status-kvonu daha da möhkəmləndirdiyini və erməni tərəfinin danışıqlar aparmaq arzusunda olmadığını təsdiqlədiyini qeyd edib: "Azərbaycanın işğal altında olan ərazilərinə bizim razılığımız olmadan, qanunsuz səfər edənlər arzuolunmaz şəxslər siyahısına daxil ediləcəkdir. Azərbaycanın bu məsələdə mövqeyi prinsipialdır".

Xatırladaq ki, Ermənistanın kütləvi informasiya vasitələri Azərbaycanın erməni işğalı altında olan Dağlıq Qarabağ regionunda qondarma "prezident seçkiləri"nin keçiriləcəyi barədə məlumat yayıb.

**S.MÜRVƏTQIZI**

# "Bu, çox böyük fəsadlara səbəb ola bilər"

***SEYİD CAMAL ƏZİMBƏYLİ:*** "ÖZÜNÜ İSLAM CƏFAKEŞİ SAYAN BİR ÇOX ŞƏXS AZƏRBAYCANDA TƏFRİQƏYƏ GEDƏN YOLUN CIĞIRINI AÇIR"

"Qafqaz Müsəlmanları İdarəsi Azərbaycanda ali din məqam olsa da, bəzi şəxslər bu ali dini qurumun qərarlarına, fətvalarına ehtiram göstərmirlər".

Bu sözləri "525"ə açıqlamasında Qarabağ Seyid Ocaqlarının təmsilçisi, şərqşünas Seyid Camal Əzimbəyli dilə gətirib. Ramazan öncəsi belə bir haldan təəssüf hissi keçirdiyini qeyd edən C.Əzimbəyli bu ayın başlaması ilə bağlı Qafqaz Müsəlmanları İdarəsi tərəfindən fətvanın verilməsinə baxmayaraq bir qrup insanın bu məsələni müzakirə predmetinə çevirdiyini bildirib. Onun sözlərinə görə, həmin şəxslər sözügedən qurumun fətvasına qərəzlə yanaşdıqlarını gizlədə bilmirlər: "Ramazan ayının gəlişi münasibəti ilə bütün Azərbaycan xalqını və müsəlmanları təbrik edirəm. Ramazanda oruc tutan, ibadət edən, millətini, xalqını, dövlətini sevən hər bir kəsin arzu və istəklərinn qəbul edilməsini Allah-Təaladan diləyirəm. Orucluq xalqımızın, dövlətimizin mənafeyi baxımından böyük bir vəsilə məqamı olacaq. Bu məqama yetmək isə imana və təqvaya sahib şəxslərin duaları ilə mümkündür. Ramazan günahların bağışlanması, insan ruhunun paklaşması ayıdır. Təəssüf ki, bir çox qara qüvvələr bu müqəddəs ay ərzində də öz məkrli niyyətlərini gizlədə bilmirlər. Və hər vəchlə ali dini qurumun qərarlarına kölgə salmağa çalışırlar. Onlar Ramazan ayının başlanması ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin fətvasının qəbul etmək istəmirlər. Hətta bu şəxslər öz qərəzli mövqeləri ilə təfriqə salmaqdan belə çəkinmirlər. Bir qrup şəxs var ki, müsəlmanları camaata bölür və Ramazan ayının başlaması ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin verdiyi fətvanı zamanını müzakirə edirlər. Bu adamların içərisində Azərbaycan dövlətinə, xalqına aidiyyatı olmayan insanlar da var. Onlar buradakı dini tolerantlıqdan məharətlə istifadə edərək, ölkəmizdə özlərinə əməlli-başlı oylaq salıblar. Üzdə hətta Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi ilə çox yüksək səviyyədə münasibətlər qurduqları halda, alt səviyyədə özlərinin qərəzli mövqelərini sərgiləyirlər. Onlar bütün adamlarına çağırış edirlər ki, bizim fətvamız başqa yerlərdən, digər ölkələrdən gəlir- və bu idarənin qərarlarına uymayın".



Bununla bağlı çoxlu informasiyalara sahib olduğunu diqqətə çatdıran C.Əzimbəyli Ramazan ayı öncəsində təfriqənin salınmasının yolverilməz olduğunu deyib: "Hər kəs bilir ki, bu ay bütün müsəlmanların bərabər olduğu, dualarının qəbul edildiyi aydır. Belə bir müqəddəs ay ərzində hansısa çirkin niyyətlərin həyata keçirilməsinə səy göstərmək əfsus doğurur. Təəssüf ki, özünü İslam cəfakeşi sayan bir çox şəxs Azərbaycanda təfriqəyə gedən yolun cığırını açır. Buna görə də mən aidiyyatı dövlət qurumlarının bu məsələdə ayıq-sayıq olmasını, məsələlərə daha həssas yanaşmasını istəyirəm. Həmin qüvvələrin məqsədlərini üzdə gizlədərək, gizlində xoş olmayan çağırışlar etməsi çox düşündürücüdür. Bu İslama, dini heysiyyata basqı kimi də qiymətləndirilə bilər. Əgər belə məqamların qarşısı zamanında alınmasa, bu, gələcəkdə Azərbaycanda çox böyük fəsadlara yol aça bilər. Əgər bu gün "sən hansı camaatdansan" sualı verilirsə və ya "bizim camaatın öz fətvası var" fikri səslənirsə, deməli məsələni araşdırmaq son dərəcə vacibdir. Bu şəxslərin Azərbaycanda yaşamasını nəzərə alsaq, onların Qafqaz Müsəlmanları İdarəsinin fətvasına əməl etməsi zəruridir. Və bu barədə hansısa müzakirələrin aparılması, əks-təbliğata səy göstərilməsi yolverilməzdir. Hesab edirəm ki, bu xoşagəlməz məqamı dilə gətirmək vacib məsələ və İslam dininə xidmətdir".

C.Əzimbəyli ibadət etməyən, kimsəyə əl tutmayan varlı şəxsləri Ramazan ayından istifadə edərək xoş əməllər etməyə çağırıb.

**Aqil LƏTİFOV**

# Dövlətə xəyanətdə günahlandırılanlara qarşı yeni ittihamlar irəli sürülüb

Milli Təhlükəsizlik Nazirliyinin həyata keçirdiyi əməliyyat tədbirləri nəticəsində bu ilin fevral və mart aylarında saxlanılan 22 nəfərin istintaqı yekunlaşmaq üzrədir. "Media forum" saytı xəbər verir ki, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) və 228.2.1-ci (qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, başqasına vermə və daşıma) maddələri ilə açılan cinayət işinin istintaqının yekunlaşmasına dair qərar elan olunub. Hazırda müdafiə tərəfin istintaq materialları ilə tanış olma prosesi gedir. İş materiallarının iyul ayının sonu, avqust ayının əvvəllərində məhkəməyə göndəriləcəyi gözlənir.

Təqsirləndirilən şəxslərdən Niyazı Kərimovun vəkili Şəfa Camalova "Media forum" saytına deyib ki, hüquqlarını müdafiə etdiyi şəxslə bağlı yeni ittihamlar irəli sürülüb: "İşə Cinayət Məcəlləsinin 28-ci — "Cinayətə hazırlıq" maddəsi əlavə edilib. Beləliklə, Niyazi Kərimova qarşı irəli sürülən maddələr bunlardır: 28. 214.2.1 (cinayətə hazırlıq; terrorçuluq; qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;) , 28, 214.2.3. (cinayətə hazırlıq; terrorçuluq; odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə;) 228. 2.1 (qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, başqasına vermə və daşıma) və 274 (dövlətə xəyanət)".

MTN 22 nəfərin saxlandığı haqda xəbəri martın 14-də açıqlayıb. Həmin açıqlamaya görə, saxlanılan şəxslər İran İslam Respublikasının xüsusi xidmət orqanı olan "Sepah"ın əməkdaşları tərəfindən məxfi əməkdaşlığa cəlb olunub, casusluq edib, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi zərərinə istifadə üçün məlumatlar toplayıb, eləcə də İranın xüsusi xidmət orqanlarının nümayəndələrinə kömək edə biləcək şəxsləri axtarıb taparaq onları "Sepah"ın əməkdaşlarının əlaqəsinə təqdim ediblər.

Qeyd edək ki, saxlanılan şəxslər Kərimov Niyazi Əlövsət oğlu, Əliyev Mübariz İsmayıl oğlu, Tağıyev Elman Ramiz oğlu, Cəlilov Nüsrət Aydın oğlu, Qasımov Rahim Müseyib oğlu, Zəkiyev Məmmədtağı Əlikram oğlu, Həşimov Bəhram Nazim oğlu, Abbasov Ayaz Fərədağa oğlu, Abbasov Əfqan Fərid oğlu, Məmmədov Şahin Həsənağa oğlu, Ağayev Mirələsgər Mirqasım oğlu, Zülfüqarov Rövşən Abdulbağı oğlu, Ələkbərov Həmidağa Tofiq oğlu, Qasımov Seymur Səxavət oğlu, Rəsulov Taleh Əliyusif oğlu, Həbibov Ceyhun Valeh oğlu, Kərimov Elçin Ələsgər oğlu, Məmmədov Zahid Gülbudağ oğlu, Zəkiyev Əbülfəz Əlikram oğlu, Bəşirov Əli Əli İsa oğlu, Nuriyev Gülhüseyn Əhmədağa oğlu və Fərəcov Asif Fərəc oğludur.

# "Dağlıq Qarabağ münaqişəsinin hələ də öz həllini tapmamasından narahatıq"

"POLŞA AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ TANIYIR VƏ DƏSTƏKLƏYİR, QONDARMA "DAĞLIQ QARABAĞ RESPUBLİKASI"NI İSƏ TANIMIR"

Dünən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Polşanın xarici işlər naziri Radoslav Sikorski ilə görüşüb. APA-nın məlumatına görə, görüşdən sonra hər iki nazirin iştirakı ilə birgə brifinq keçirilib. Elmar Məmmədyarov görüşdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, energetika, qaz və neft, Dağlıq Qarabağ münaqişəsi, xidməti pasport sahibləri üçün viza rejiminin sadələşdirilməsi kimi məsələlərin müzakirə olunduğunu deyib. XİN başçısı Azərbaycanla Polşa arasında əməkdaşlığın ən yüksək səviyyədə olduğunu vurğulayıb.

Polşanın xarici işlər naziri Radoslav Sikorski öz növbəsində ölkəsinin "Şərq Tərəfdaşlığı" proqramının əsas təşəbbüskarlarından biri olduğunu xatırladıb. Onun sözlərinə görə, bu proqram çərçivəsində viza rejiminin liberallaşdırılması nəzərdə tutulur və perspektivdə Azərbaycan üçün viza rejiminin tamamilə aradan qaldırılması mümkündür.

"Polşa Sərhəd Xidmətinin işinin effektivliyinin artırılmasında Azərbaycana kömək etməyə hazırdır. Ölkəmizin "Fronteks" agentliyi sərhədlərin monitorinqinin aparılmasına, Azərbaycan Dövlət Sərhəd Xidmətinin əməkdaşları üçün treninqlərin keçirilməsinə dəstək verə bilər".

Nazir qeyd edib ki, görüş zamanı iki ölkə arasında energetika sahəsində əməkdaşlığın inkişafı məsələsi də müzakirə olunub. O, Polşanın enerji resurslarının nəqlinin diversifikasiyasında maraqlı olduğunu deyib.

Polşalı nazir həmçinin deyib ki, ölkəsi Dağlıq Qarabağ münaqişəsinin hələ də öz həllini tapmamasından narahatdır: "Polşa Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir, qondarma "Dağlıq Qarabağ Respublikası"nı isə tanımır". O qeyd edib ki, Ermənistan və Azərbaycan arasında bu münaqişə həll olunmalıdır və Dağlıq Qarabağın yekun statusu müəyyənləşməlidir.

Jurnalistlərin bu gün Azərbaycanın işğal altında olan ərazilərində keçiriləcək qondarma "prezident seçkiləri" ilə bağlı sualını cavablandıran Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, bu fakt münaqişənin sülh yolu ilə nizamlanması prosesi ilə uyğunsuzluq təşkil edir və erməni tərəfinin qeyri-konstruktiv mövqeyini nümayiş etdirir.

## JuHİ Masallıda "Ailə dəyərləri media müstəvisində" mövzusunda tədbir keçirib

Jurnalistlərin Həmkarlar İttifaqı (JuHİ) iyulun 16-da Masallı rayonunda yerli media təmsilçilərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirib. Bu barədə "525"ə JuHİ-dən məlumat verilib. Məlumata görə, "Ailə dəyərləri media müstəvisində" mövzusunda keçirilən dəyirmi masa JuHİ-nin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə gerçəkləşdirdiyi "Azərbaycanın cənub bölgəsində modern ailə prinsiplərinin təbliğinə yardım" layihəsi çərçivəsində gerçəkləşdirilib. "Cənub xəbərləri" qəzetinin konfrans zalında keçirilən tədbirdə 25 nəfər nümayəndə iştirak edib.

JuHİ sədri Müşfiq Ələsgərli bildirib ki, layihənin həyata keçirilməsində əsas məqsəd ölkənin cənub regionunda ailə modelinin sağlam dəyərlər üzərində modernləşməsinə yardım etməkdən ibarətdir: "Ailənin cəmiyyətdəki tərbiyəvi funksiyasının gücləndirilməsinə, ailə dəyərlərinə marağın artırılmasına, gənc ailələrə yüksək mənəvi dəyərlərin aşılanmasına, yeniləşmə adı ilə gündəmə gətirilən yanlış tendensiyaların qarşısının alınmasına, mühafizəkarlıq pərdəsi altında zərərli vərdişlərin bərpasına mane olmaq layihənin əsas məqsədlərindəndir. Biz yerli ictimaiyyət nümayəndələri ilə media təmsilçilərini bir araya gətirib sağlam müzakirələr keçirə bildik. Ailələrlə KİV redaksiyaları arasında təmasların intensivləşməsi, KİV redaksiyalarında isə ailə münasibətlərinə həssas yanaşmaq vərdişlərinin yaranması bölgədə ailə münasibətlərinin sağlam müstəvidə inkişafına mühüm töhfə verəcək".

M.Ələsgərli qeyd edib ki, növbəti belə tədbirlər Lənkəran və Cəlilabad rayonlarında keçiriləcək.

**AQİL**

## DSMF-nin "190" nömrəli telefon xidmətinə 25 686 müraciət daxil olub

2012-ci ilin 6 ayı ərzində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) "190" nömrəli telefon məlumat xidmətinə 25 686 müraciət daxil olub. DSMF-nin ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, telefon məlumat xidmətinə daxil olan və bilavasitə operatorlara yönləndirilən sorğuların 54,7 faizi canlı rejimdə birbaşa olaraq məsləhətçi operatorlar tərəfindən cavablandırılıb. Müraciətlərin 45,3 faizi isə qeyri-iş günlərinə və saatlarına təsadüf edib ki, bu zaman suallara avtomatik olaraq elektron operator tərəfindən standart formada cavablar verilib.

Bu ilin 6 ayında "190" nömrəli telefon məlumat xidmətinə daxil olan müraciətlərin 52,6 faizi pensiya, 19,5 faizi məcburi dövlət sosial sığortası ilə bağlı məsələlərə aid olub. Məlumat xidmətinə ünvanlanan müraciətlərin 27,9 fazi isə fərdi uçotun təşkili və digər məsələləri əhatə edib.

Ümumilikdə bu ilin birinci yarısında DSMF-yə pensiyaların məbləğinin az olması və artırılması istiqamətində ünvanlanan müraciətlərin sayı əhəmiyyətli dərəcədə azalıb. Aparılan araşdırmalara əsasən, bu, ötən il "Əmək pensiyaları haqqında" Qanuna edilmiş dəyişikliyin tətbiqi nəticəsində 2011-ci il iyulun 1-dən əvvəlki sistemlə təyin olunmuş pensiyaların yenidən hesablanması və 900 min nəfərə yaxın əmək pensiyaçısının pensiyasının orta hesabla 40 faiz artırılması ilə bağlıdır. Bu baxımdan cari ilin ikinci yarısında Fonda ünvanlanan müraciətlər daha çox sığorta-pensiya sistemindəki bu önəmli islahatla bağlı hüquqi bilgilərin alınması və müəyyən dəqiqləşmələrin aparılması xarakteri daşıyıb.

**BƏXTİYAR**

## "Siyasi münaqişə, münaqişələrin həlli yolları: münaqişəyə sistemli və elmi yanaşmalar" müzakirə edilib

Ötən gün Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində(SAM) "Siyasi elmi mühazirələr" layihəsi çərçivəsində "Siyasi münaqişə, münaqişələrin həlli yolları: münaqişəyə sistemli və elmi yanaşmalar" mövzusunda elmi-praktiki seminar keçirilib. Seminarda SAM-ın xarici siyasətin təhlili şöbəsinin müdiri Rövşən İbrahimov mövzuya dair mühazirə ilə çıxış edərək iştirakçılara münaqişələrin həlli yolları barədə ətraflı məlumat verib. Sonra mövzu ilə bağlı maraqlı fikir mübadiləsi aparılıb, gənclər tərəfindən siyasi münaqişələrin həlli yollarına dair müxtəlif fikirlər səsləndirilib. Bir sıra universitetlərin tələbələrinin iştirak etdiyi seminar böyük maraqla qarşılanıb. Qeyd edək ki, layihə çərçivəsində bir neçə bu cür elmi seminarların keçirilməsi planlaşdırılır.

**S.MÜRVƏTQIZI**

# İşə qəbul olunmaq üçün ərizə verən müəllimlərin sənədləri araşdırılıb

Azərbaycanda 2012-2013-cü tədris ili üçün müəllimlərin işə qəbulu üzrə elektron ərizələrin araşdırılması başa çatıb. Ərizələrin təhlili nəticəsində 3270 vakant yer üçün təqdim edilən 16 195 elektron ərizənin 700-dən çoxu ixtisas uyğunluğu olmadığına görə ləğv edilib. Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsindən verilən məlumata görə, 15500 ərizə təsdiq edilib. Onlardan 15 mini Azərbaycan, 500-dək ərizə isə rus bölməsi üzrə vakant yerlərə verilib. Daha çox elektron ərizələr ibtidai sinif, ingilis dili, Azərbaycan dili və ədəbiyyat, riyaziyyat və tarix fənləri üzrə verilib: "İbtidai siniflər üzrə 143 vakant yerə 3700-dən çox elektron ərizə verilib. Həmin yerlərdən 39-u Bakı şəhərindədir, 3700 elektron ərizənin də böyük əksəriyyəti Bakı şəhəri üzrə olan həmin yerlərə verilib. Ona görə də Bakı şəhərində çox ciddi müsabiqə vəziyyəti yaranıb".

Məlumatda bildirilib ki, bu il regionlar üzrə də ərizələrin sayının artdığını deyən şöbə müdiri bildirib ki, regionlar üzrə daha çox elektron ərizə ingilis dili fənni üzrə verilib: "Bu fənn üzrə 247 vakant yerə 2700-dən çox elektron ərizə təqdim edilib. Azərbaycan dili və ədəbiyyat fənni üzrə 337 vakant yerə 2000-dən, riyaziyyat fənni üzrə 271 yerə 1400-dən çox ərizə verilib. Tarix fənni üzrə isə 260 vakant yerə 1000-dən çox ərizə verilib". Məlumata görə, iyulun 19-da bütün elektron ərizə vermiş müəllimlərin elektron səhifələrinə imtahanın keçiriləcəyi yer və vaxtı ilə bağlı məlumatlar göndəriləcək. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin 2-ci mərhələsi-elektron imtahanların aparılmasına isə iyulun 23-də başlayacaq və avqustun sonunadək davam edəcək: "Həmin imtahanların son dərəcə şəffaf və aşkarlıq şəraitində keçirilməsi üçün hazırlıq işləri başa çatdırılıb. Nazirlik müəllimlərin diqqətinə çatdırır ki, işə qəbul üçün yeganə meyar onların müsabiqədə göstərdikləri nəticədir. Proses elektron vasitələr tətbiq olunmaqla həyata keçirilən şəffaf bir mexanizmdir".

**S.QARAYEVA**

# RİTN-də kollegiya iclası keçirilib

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) 2012-ci ilin birinci yarısının yekunlarına dair kollegiya iclası keçirilib. Nazirlikdən verilən məlumata görə, rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarım ilinin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasdakı nitqindən irəli gələn vəzifələr barədə danışıb, respublikamızda aparılan uğurlu neft siyasəti nəticəsində qeyri-neft sektorunun inkişafı və dövlət proqramlarının iqtisadiyyatın yeni sahələrinin inkişafı üçün geniş imkanlar açdığını və bu imkanlardan rabitə və informasiya texnologiyaları sahəsində də səmərəli istifadə olunduğunu vurğulayıb.

Bu sürətli inkişafda qeyri-neft sektorunun aparıcı sahəsi olan İKT-nin müstəsna yeri olduğunu qeyd edən nazir, sektora göstərilən hərtərəfli dövlət qayğısı sayəsində dinamik inkişafa nail olunduğunu, ötən müddət ərzində bu sahədə müsbət nəticələr qazanıldığını və Dünya İqtisadi Forumunun hesabatına əsasən, ölkəmizin internet istifadəçilərinin sıxlığına görə MDB və regionda liderliyini qoruyub saxladığını vurğulayıb. Ə.Abbasov ötən dövr ərzində İKT, informasiya və poçt sektorunda əldə olunan gəlirlərin həcminin ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,0 faiz artdığını və bunun ölkənin iqtisadi sektorunda ən yüksək artım olduğunu qeyd edib.

Aparat rəhbəri Vidadi Zeynalov 2012-ci ilin birinci yarım ilinin yekunlarına həsr olunmuş məruzə ilə çıxış edib. Hesabat dövründə qazanılan nailiyyətləri diqqətə çatdıran məruzəçi bildirib ki, sektor üzrə əldə olunan gəlirlərin təxminən 74,3 faizi qeyri-dövlət rabitə müəssisələrinin payına düşüb, gəlirlərin ÜDM-də payı isə 1,74 faiz olub. Respublika üzrə əhalinin hər 100 nəfərinə düşən telefon aparatlarının sayı 18,6 , hər 100 nəfərə düşən mobil abunəçilərin sayı 110, hər 100 nəfərə düşən komputerlərin sayı 20, hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı 65 və hər 100 nəfərə düşən genişzolaqlı internet istifadəçilərinin sayı isə 30-dan artıqdır.

Daha sonra, məruzə ətrafında RİTN-in bir sıra birlik və müəssisə rəhbərlərinin çıxışları dinlənilib.

Kollegiyaya yekun vuran Ə.Abbasov ötən dövr ərzində həyata keçirilən işləri qənatbəxş hesab edərək Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq texnopark şəbəkəsinin yaradılması, növbəti ilin yanvar-fevral aylarında ilk telekommunikasiya peykinin orbitə buraxılması, BMT-nin təşkilatçılığı ilə İnternet İdarəçiliyi Forumunun Bakıda keçiriləcək toplantısına hazırlıq işlərinin yüksək səviyyədə aparılması və digər mühüm əhəmiyyət kəsb edən məsələlərin icrası ilə bağlı müvafiq tapşırıqlar verib.

**BƏXTİYAR**

# Doktoranturaya sənəd qəbulu sentyabrın 15-də başlanacaq

Azərbaycanda növbəti tədris ili üçün ali təhsilin doktorantura səviyyəsi üzrə sənəd qəbulunun aparılacağı tarixlər açıqlanıb. Təhsil Nazirliyinin Elm şöbəsinin müdiri Gültəkin Hüseynovanın sözlərinə görə, nazirliyin sisteminə daxil olan ali məktəblər və elmi tədqiqat müəssisələrində sənəd qəbuluna sentyabrın 15-dən başlanacaq və oktyabrın 15-dək davam edəcək. İmtahanların keçirilməsinə isə oktyabrın 20-dən başlanılacaq. Şöbə müdirinin sözlərinə görə, nazirliyin doktoranturaya qəbul aparmağa icazə verilən ali məktəblər və elmi tədqiqat müəssisələri özləri sənəd qəbulu aparacaq və qəbul imtahanı keçirəcəklər.

H.Hüseynova deyib ki, sənəd qəbulunu müəssisələr qeyd edilən müddət ərzində müxtəlif tarixlərdə apara bilərlər.

Qeyd edək ki, Təhsil Nazirliyi növbəti il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul üçün 325, fəlsəfə doktoru proqramı üzrə dissertanturaya 377, elmlər doktoru proqramı üzrə doktoranturaya 85, dissertanturaya 89 plan yeri ayırmağı nəzərdə tutur. AMEA-nın qəbul planında fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul üçün 332, elmlər doktoru proqramı üzrə 120 yerin ayrılması təklif edilib. Hər iki qəbul planı artıq təsdiqlənmək üçün Nazirlər Kabinetinə təqdim edilib.

**S.QARAYEVA**

# Gənclər Fondu ilk qrant müsabiqəsini elan edib

Azərbaycan Gənclər Fondu ilk qrant müsabiqəsini elan edib. Fonddan verilən məlumata görə, müsabiqədə iştirak etmək üçün gənclər Fondun saytında ( www.youthfoundation.az ) qeydiyyatdan keçməli və onlayn formada layihə təklifi ilə müraciət etməlidir. Müsabiqə Fondun saytında qeyd olunan 5 kateqoriya — A, B, C, D və E kateqoriyaları üzrə keçirilib. A, B və C kateqoriyaları üzrə layihə qəbulu 15 iyul tarixində dayandırılmışdır. Digər 2 kateqoriya üzrə isə mütəmadi olaraq müraciətlər qəbul olunur. Ümumilikdə Fondun saytında 172 təşkilat və 83 nəfər gənc individual formada qeydiyyatdan keçiblər. A kateqoriyası — yerli layihələr üzrə gənclərin daha çox marağına səbəb olmuş və bu kateqoriya üzrə 127 layihə təklifi gəlib. Digər kateqoriya B — beynəlxalq layihələr üçün nəzərdə tutulub və məhz bu kateqoriya üzrə 19 layihə təklifi qəbul olunub. Növbəti kateqoriya C kateqoriyası — yaradıcı gənclərə dəstək layihələri istiqamətindədir. Bu kateqoriya üzrə isə 19 müraciət olub. Fondun saytında qeyd olunmuş digər 2 kateqoriya D və E kateqoriyaları üzrə mütəmadi olaraq müraciətlər qəbul olunur. D kateqoriyası gənc alimlərin, ictimai fəal istedadlı və yaradıcı gənclərin xarici ölkələrdə keçirilən tədbirlərdə iştirakının qismən maliyyələşdirilməsi məqsədilə yaradılıb və hal-hazırda bu kateqoriya üzrə 11 müraciət gəlib. Sonuncu E kateqoriyası yalnız xarici ölkələrin gəncləri və gənclər təşkilatlarının Azərbaycan tarixinə və mədəniyyətinə dair tədqiqat işlərinin maliyyələşdirilməsi üçündür. Bu kateqoriya ilə çox sayda xarici vətəndaşlar və təşkilatlar maraqlanıb, lakin hələ rəsmi müraciət olmayıb.

Hal-hazırda Fondun əməkdaşları tərəfindən layihə təkliflərinin siyahıları hazırlanır. Fonda gəlmiş bütün müraciətlər baxılması üçün Azərbaycan Gənclər Fondunun Müşahidə Şurasına təqdim olunacaq. Müşahidə Şurasının qərarından sonra iyul ayının sonunda qalib layihələrin siyahısı Fondun saytında yerləşdiriləcək və mətbuata açıqlanacaq.

**S.QARAYEVA**

# "Bank Standard"ın "Kartla ödə, "APPLE" qazan!" aksiyasının III mərhələsinin qalibləri müəyyən olundu

İyulun 17-də "Bank Standard"ın baş ofisində müştərilərə loyallıq proqramı, həmçinin kart vasitəsilə ödənişləri stimullaşdırmaq proqramı çərçivəsində "Kartla ödə, "APPLE" qazan!" aksiyasının II mərhələsinin lotereyası keçirildi. Lotereyanın qalibləri Fizuli Talıbov (0603888), Maksim Pavlov (1512400), Mədinə Fərziyeva (0792085), Rövşən Əfəndi (1010762), Ülfət Yusifzadə (0333721), Nailəxanım İsayeva (0078014), Sərxan Haşımov (1210902), Rafiq Mahmudzadə (0886593), Tələt Cəbrayılzadə (1573347) və Əflatun Fərəjov (0878336) oldular. Qaliblərin hər birinə "iPhone 4S" mobil telefonları təqdim olunacaq. Qaliblər öz uduşlarını təhvil almaq üçün tirajın keçirilmə tarixindən etibarən 90 iş günü ərzində Bankın Baş ofisinə (Bakı, Azərbaycan pr., 4) müraciət edə bilərlər.




İyulun 1-dən sentyabr ayının 30-dək davam edəcək aksiyanın növbəti, sayca IV mərhələsinin uduş fondunu 10 ədəd MacBook Air noutbuku təşkil edir.

Qeyd edək ki, "Kartla ödə, "APPLE" qazan!" geniş həcmli aksiyasında iştirak etmək üçün bankın plastik kartı ilə POS-terminal, bankomat (ATM), habelə "Mobil Bank" xidməti vasitəsilə və ya İnternetdə ödəniş aparmaq lazımdır. Kartlar vasitəsilə ödənilən hər 10 şərti vahid (AZN, USD, GBP, EUR) kart sahibinə bir lotereya şansı qazandırır.

Lotereya şansları kart vasitəsilə ödənişlərlə yanaşı, "Bank Standard"ın kart məhsullarını əldə etmək müqabilində də verilir.

Bankın uduşlu aksiyaları haqda daha ətraflı məlumatı www.bankstandard.com saytından, bankın Məlumat mərkəzinin 158 nömrəsindən (gecə-gündüz), eləcə də www.facebook.com/-BankStandard.KB səhifəsindən əldə etmək olar.

# Fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri mükafatlandırıldı

İyulun 18-də Nizami Rayon İcra Hakimiyyəti və Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun "Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspiktivlər" mövzusunda birgə təşkil etdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Toplantını giriş sözü ilə açan Nizami Rayonun İcra Hakimiyyətinin başçısı Tahir Budaqov artıq müsabiqənin yekunlaşdığını və qaliblərin müəyyənləşdirildiyini bildirib. Mərasimdə çıxış edən Fondun icraçı direktoru Vüqar Səfərli qeyd edib ki, müsabiqənin keçirilməsində məqsəd Nizami rayonunun sosial-iqtisadi və ictimai həyatında baş verən prosesləri mətbuat vasitəsi ilə ictimaiyyətə daha yaxından çatdırmaqdır . Milli mətbuatımızın çətin və şərəfli yol keçdiyini söyləyən icraçı direktor dövlətin müstəqil mətbuata daimi qayğı göstərdiyini yığıncaq iştirakçılarının diqqətinə çatdırıb : "Bunun nəticəsidir ki, ölkə başçısının fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb". Jurnalist peşəkarlığının artırılması istiqamətində görülən işlərdən danışan Vüqar Səfərli qeyd edib ki, Fondun son illərdə həyata keçirdiyi mühüm layihələrdən biri də kütləvi informasiya vasitələri ilə yerli icra hakimiyyəti orqanları arasında əlaqələrin inkişaf etdirilməsidir. İcraçı direktor belə tədbirlərin mətbuat nümayəndələri ilə yerli icra strukturları arasında əməkdaşlıq münasibətlərinin daha da genişlənməsinə təkan verdiyini bildirib. O, həmçinin bu cür tədbirlərin jurnalistlərin sosial durumunun yaxşılaşdırılması baxımından faydalı olduğunu vurğulayıb.





Çıxışını davam edən Vüqar Səfərli ötən ay Fondun təşəbbüsü ilə Nizami rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildiyini deyib: "Tanınmış KİV rəhbərlərinin iştirak etdiyi həmin görüşdə rayon icra hakimiyyəti ilə birgə fərdi jurnalist müsabiqəsinin keçirilməsi qərara alınmışdır: İyunun 12-dən iyulun 12-dək davam edən müsabiqəyə ümumilikdə 31 yazı daxil olmuş və onlardan 6-sı qalib hesab edilmişdi. Müsabiqənin şərtlərinə əsasən I yerin qalibinə — 1000 manat, II yer (2 nəfər) 800 manat, III yerin (3 nəfər) qalibinə isə 600 manat məbləğində pul mükafatı və xüsusi diplomların verilməsi qərara alınıb. Bunlardan əlavə 10 nəfərə həvəsləndirici mükafat verilməsi nəzərdə tutulub".

Qalibləri təbrik edən Fondun icraçı direktoru Vüqar Səfərli bu cür tədbirlərin davamlı olacağını bildirib.

Daha sonra mükafatlandırma mərasimi keçirilib və qaliblərə xüsusi diplom və pul mükafatları təqdim olunub.

Nizami Rayon İcra hakimiyyətinin başçısı Tahir Budaqov sonda belə müsabiqələrin jurnalist peşəkarlığının artırılmasında xüsusi rol oynadığını vurğulayaraq qarşıdan gələn Milli Mətbuatın 137-ci il dönümü ilə əlaqədar qalibləri və Fondun icraçı direktorunu təbrik edib.

# "Azərbaycan daha çox avropalı turisti cəlb etmək istəyirsə, vizalar ləğv olunmalıdır"

***ALMANİYA SƏFİRİ:*** "ALMANİYA FEDERAL HÖKUMƏTİ ATƏT-İN MİNSK QRUPU VƏ AVROPA BİRLİYİ ÇƏRÇİVƏSİNDƏ MÜNAQİŞƏNİN DİNC YOLLA HƏLLİ ÜÇÜN GÖSTƏRİLƏN BÜTÜN CƏHDLƏRİ DƏSTƏKLƏYİR"

***(Əvvəli 1-ci səh.)***

Almaniya Avropanın dünyada iqtisadi baxımdan ən rəqabətə davamlı region olmasına dair "Lissabon-2010"un gündəminə çox ciddi yanaşıb. Son onilliklər ərzində Almaniyanın struktur islahatlarına əmək bazarındakı böyük çeviklik və pensiya yaş həddinin 65 yaşdan 67 yaşa qədər artırılması aiddir. Bu yalnız bir neçə misaldır.

Biz öz məqsədimizə çatdıq, lakin öz uğurumuzun qurbanı olduq. Avrozonada rəqabətə daha az davamlı tərəfdaşlarımız bizdən həmrəylik istəyir. Biz kömək etmək istəyirik, amma müəyyən təbii hədlər var. Biz Avrozonanın başqalarını xilas etmək üçün öz mövcudluğunu riskə atacaq rəsmi mühafizə orqanı deyilik. Hazırda Avrozonadakı bəzi çatışmazlıqların korreksiyası üzərində çalışırıq. Effektiv maliyyə-iqtisadi öhdəlikləri də nəzərə almaqla bizə daha güclü siyasi birlik lazımdır. Mən hazırda bu iqtisadi məsələlərin AB-Azərbaycan münasibətlərinə təsirini görmürəm.

**— İki ölkə arasında turizm sahəsində əlaqələri necə qiymətləndirirsiniz və "Eurovision" müsabiqəsi alman turistlərin Azərbaycana marağını artırıbmı?**

— Azərbaycan çox rəngarəng landşaft təklif edir və öz xalqının qonaqpərvərliyi ilə fəxr edə bilər. Beynəlxalq turizm ciddi rəqabətin olduğu çox həssas sahədir. Azərbaycan turizmin inkişafı üçün potensiala malikdir, lakin turistlər hələ də Avropa standartının çatışmazlığını hiss edirlər. Hesab edirəm ki, "Eurovision" Azərbaycanın öyrənilməsində müəyyən maraq yaradıb. Lakin ölkə avropalı turistləri cəlb etmək istəyirsə, vizalar ləğv olunmalıdır. Bu, çox ciddi maneədir.

**— Bu il Almaniya Xristian-Demokrat İttifaqının xarici siyasət üzrə komitəsi Dağlıq Qarabağla bağlı sənəd qəbul edib. Bu sənəddə hökumət münaqişənin həlli üçün fəaliyyət göstərməyə çağırılır. Bu sənədin Bundestaq səviyyəsində müzakirəsi planlaşdırılırmı və gələcəkdə bu barədə qətnamə qəbul olunacaqmı?**

— Almaniya federal hökuməti ATƏT-in Minsk Qrupu və Avropa Birliyi çərçivəsində münaqişənin dinc yolla həlli üçün göstərilən bütün cəhdləri dəstəkləyir. Bundestaq öz gündəmini müstəqil müəyyənləşdirən dövlət orqanıdır. Ona görə də mən təəssüf ki, sizin sualınıza cavab verə bilmərəm.

# *Qənirə Paşayeva:* "Aygün Şahmalıyeva beynəlxalq ictimaiyyətin və beynəlxalq təşkilatların laqeydliyinin qurbanı oldu"

"Əgər beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar, Qarabağ məsələsinin həlli ilə məşğul olan qurumlar, vasitəçilər Ermənistan tərəfindən qətlə yetirilmiş azərbaycanlı körpələrlə, uşaqlarla bağlı vandalizm aktlarına vaxtında lazımi reaksiya göstərsəydilər, Aygün öz həyatını körpə yaşında itirmək məcburiyyətində qalmazdı. 11 yaşlı Aygün Şahmalıyeva məhz beynəlxalq ictimaiyyətin, beynəlxalq təşkilatların bu cür məsələlərə laqeydliyinin, biganəliyinin qurbanı oldu".Bu fikirləri jurnalitstlərə açıqlamasında "İtirilmiş gələcək — Aygün" filminin direktoru və məsləhətçisi, millət vəkili Qənirə Paşayeva dilə gətirib. Millət vəkilinin qeyd etdiyinə görə, düz bir il öncə elə bu gün-iyulun 18-də Tovuz rayonunun Ermənistanla sərhəddə yerləşən Əlibəyli kəndinin 11 yaşlı sakini Aygün Şahmalıyeva Ermənistan və ermənilər tərəfindən içinə partlayıcı qoyulmuş və çayla axıdılmış oyuncağın partlaması nəticəsində qətlə yetirildi. Q.Paşayeva bildirib ki, dünya tarixində bəlkə də bu vandalizm aktının analoqu yoxdur: "Dünyada bunun analoqu yoxdur ki, bilərəkdən içinə partlayıcı qoyulmuş oyuncaq çayla axıdılsın və bunun nəticəsində də gözəl gələcəyi olan körpə yaşlı, məsum bir qız uşağı dünyasını dəyişsin, faciəli şəkildə, vəhşicəsinə qətlə yetirilsin. Avrasiya Araşdırmalar İnstitutu İctimai Birliyi olaraq da biz körpə balamız Aygünün faciəli həyatına həsr olunmuş "İtirilmiş gələcək — Aygün" adlı film hazırlamışıq. Bu filmin hazırlanmasında və onunla bağlı təqdimat mərasiminin keçirilməsində əsas məqsədimiz ondan ibarətdir ki, əvvəla, indiki gənclik və gələcək nəsillərimiz Aygünü nə unutsun, nə də unutdursun. Çünki çox təəssüflər olsun, yuxarıda qeyd etdiyim kimi, Ermənistan tərəfindən Aygünün belə bir şəkildə vəhşicəsinə qətlə yetirilməsinə çox biganə münasibət ortaya qoyuldu. Bu vandalizm aktına lazımi reaksiya verilmədi. Yenə qeyd edirəm, Aygün nəyin qurbanı oldu? Aygün onun qurbanı oldu ki, beynəlxalq ictimaiyyət və beynəlxalq təşkilatlar bu kimi məsələlərə laqeydlik nümayiş etdirdilər". Q.Paşayevanın sözlərinə görə, əgər beynəlxalq ictimaiyyət Aygünə qədər qətlə yetirilmiş azərbaycanlı uşaqlar, körpələrlə bağlı vandalizm aktlarına vaxtında lazımi reaksiya göstərsəydi, həmçinin azərbaycanlılara qarşı soyqırımları, qətliamlar həyata keçirən, terroru dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistana və ermənilərə qarşı təsirli təzyiqlər etsəydi, bu vandalizm hərəkətlərini törədənlərin cəzalandırılmasına nail olsaydı, o zaman Aygün də bu şəkildə qətlə yetirilməzdi: "Aygünün bu cür faciəli şəkildə həyatını itirməsi, qətlə yetirilməsi və ona qarşı həyata keçirilmiş terror aktını törədənlərin beynəlxalq ictimaiyyət və beynəlxalq təşkilatlar tərəfindən psilənməməsi, lənətlənməməsi yeni qurbanların olmasına şərait yaradır. Odur ki, bu filmdə bizim əsas məqsədimiz indiki və gələcək nəsilləri Aygünü unutmağa və unutdurmağa qoymamaqdır". Millət vəkili eyni zamanda, qeyd edib ki, sözügedən film təkcə Azərbaycanda nümayiş olunmayacaq, o ingilis dilinə tərcümə edilərək beynəlxalq təşkilatlara, xarici ölkələrin Azərbaycandakı diplomatik korpuslarına, həmçinin Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri vasitəsilə Azərbaycanın diaspor təşkilatlarına göndəriləcək. Millət vəkilinin qeyd etdiyinə görə, bununla yanaşı, film sosial şəbəkələrdə və Youtube-da da yerləşdiriləcək: "Biz bir daha bu filmi çəkməklə onu demək istəyirik və dünyaya, beynəlxalq ictimaiyyətə belə bir mesaj göndərmək, çağırış səsləndirmək istəyirik ki, Aygünləri unutmağa qoymayacağıq və unutdurmağa imkan verməyəcəyik".

**Kamil HƏMZƏOĞLU**

# *Bahar Muradova:* "İşğal faktoru aradan qaldırılmayınca, erməni icmasının danışıqlara cəlb olunması mümkün deyil"



"Ermənistan tərəfi Dağlıq Qarabağın erməni icmasının görüşlərdə iştirakına maneçilik törədir və iki icma arasında istənilən təmasların mümkünsüz olduğunu hesab edir". Bunu mətbuata açıqlamasında Milli Məclis (MM) sədrinin müavini Bahar Muradova deyib. Azərbaycan tərəfinin öz mövqeyində israrlı olduğunu söyləyən B.Muradova qeyd edib ki, Dağlıq Qarabağ yalnız o zaman danışıqlar prosesinə cəlb oluna bilər ki, tərəflər arasında problemin həllinə dair razılıq əldə olunsun.Vitse-spikerin dediyinə görə, Dağlıq Qarabağdan qaçqın düşmüş Azərbaycan icması yerinə qayıtdıqdan, vətəndaş hüquqları tam bərpa edildikdən və qoşunlar ərazilərimizdən çıxarıldıqdan sonra Azərbaycan öz tərkibində olan , statusu müəyyən ediləcək ərazinin nümayəndələri ilə danışıqlar prosesinə gedə bilər. B. Muradova bildirib ki, bu özü də danışıqlar prosesinin müəyyən mərhələsi ola bilər, amma bununla belə, bu məsələ bu gün üçün real görünmür: "Çünki nə tərəflər arasında razılaşma var, nə də deyilən şərtlər yerinə yetirilməyib. İşğal faktoru aradan qaldırılmayınca bunlar mümkün deyil".

Vitse-spiker eyni zamanda, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xankəndi şəhərində inşa olunmuş aeroporta uçuşlar etmək istəyinə də münasibət bildirib. Uçuşlar üçün beynəlxalq qanunvericiliyin olduğunu xatırladan B. Muradovanın sözlərinə görə, Azərbaycan da qərarlarında bu qanunvericiliyə əsaslanır. B. Muradova xatırladıb ki, vaxtı ilə bu məsələ kəskinləşdiyi zaman beynəlxalq təşkilat da bu şərtləri ortaya qoyubmuş: "Biz öz səmamızda istənilən uçan obyektin təhlükəsizliyinə təminat veririksə, digər tərəf də suveren hüquqları pozmamaq öhdəliyini üzərinə götürüb. Yəni, əgər onlar buna razılıq veriblərsə, deməli, Azərbaycan səmasında uçuşlar etməməyə razılıq veriblər. Əgər onlar uçuş həyata keçirəcəklərsə Azərbaycan adekvat münasibət bildirəcək".

**Kamil HƏMZƏOĞLU**

# Quba hadisələrinə görə tutulanların həbs müddəti uzadılıb

Quba hadisələrinə görə tutulan şəxslərin həbs müddəti uzadılıb. Bu barədə APA-ya vəkil Əsabəli Mustafayev məlumat verib. Onun sözlərinə görə, dünən qapalı məhkəmə prosesində Quba hadisələri ilə əlaqədar tutulan Akif Əliyevin həbs müddətinin uzadılması ilə bağlı prokurorluğun vəsatətinə baxılıb. Prokurorluq hazırda cinayət işinin istintaqının yekunlaşmaq üzrə olduğunu və iş üzrə materiallarının məhkəməyə göndərilməsi üçün hazırlıq işlərinin aparılmasını əsas göstərərək bu vəsatəti verib. Məhkəmə prokurorluğun vəsatətini təmin edib və dünən Akif Əliyev də daxil olmaqla iş üzrə təqsirləndirilən 4 nəfərin həbs müddətini daha iki ay müddətinə uzadılması barədə qərar çıxarıb.

Ə.Mustafayev həmçinin qeyd edib ki, iş üzrə təqsirləndirilən daha bir qrup şəxsin həbs müddəti bir neçə gün əvvəl uzadılıb. O, həmçinin son məlumatlara görə, Quba hadisələri ilə bağlı 34 nəfərin məsuliyyətə cəlb edildiyini bildirib.

Qeyd edək ki, Quba Rayon İcra Hakimiyyətinin sabiq başçısı Rauf Həbibovun 2011-ci il noyabrın 22-də sosial məsələlərin müzakirəsinə həsr olunmuş müşavirədə səsləndirdiyi bəzi fikirləri qubalılara hörmətsizlik kimi qəbul edən 1000 nəfərə yaxın sakin 2012-ci il martın 1-də İcra Hakimiyyətinin inzibati binası qarşısında etiraz aksiyası keçirib. Aksiya zamanı İcra Hakimiyyətinin inzibati binasının şüşələri və orada olan avadanlıqlar sındırılıb, bir neçə yardımçı tikili və başçıya məxsus fərdi yaşayış evi yandırılıb, xidməti vəzifəsini yerinə yetirən 24 polis əməkdaşına xəsarət yetirilib.

Hadisədən dərhal sonra faktla bağlı Cinayət Məcəlləsinin 233-cü (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə) və 309-cu (vəzifə səlahiyyətlərini aşma) maddələri ilə cinayət işi başlanılıb.

Həyata keçirilən tədbirlərlə cinayətdə iştirak edən xeyli sayda insan istintaqa cəlb edilib. Onlardan yalnız ictimai qaydanın kobud sürətdə pozulmasında, fiziki və hüquqi şəxslərə məxsus əmlakın məhv edilməsində fəal iştirak edən bir qrup şəxs Cinayət Məcəlləsinin həmin maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmə tərəfindən barələrində həbs-qətimkan tədbiri seçilib.

# *Bəxtiyar Sadıqov:* "TANAP-la Ermənistanın təcridolma prosesi daha da güclənəcək"



"Artıq Avropaya gedən qaz kəmərlərinin "siyasiləşməsi" prosesi gedir". Bunu mətbuata açıqlamasında hakim partiyadan olan millət vəkili, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov dilə gətirib. Onun dediyinə görə, saxtalı qış günlərində dəfələrlə qaz kəmərlərində müxtəlif "fəsad"lar baş verib və bundan bərk narahat olan Avropa özünə etibarlı tərəfdaş-təchizatçı axtarır.

Millət vəkili qeyd edib ki, Azərbaycanın dövlət başçısı isə dəfələrlə təbii qaz satışı üçün marşrutların seçilməsində yalnız milli maraqların əsas tutulacağını bəyan edib: "Dünya Avropanı qazla təmin edəcək mənbələr və marşrutlar üzərində düşündüyü, siyasilərin müxtəlif bəyanatlar səsləndirdiyi, haqqında danışılan ayrı-ayrı layihələrin reallaşdırılması üçün maliyyə mənbələrinin axtarıldığı bir vaxtda Azərbaycanla Türkiyə razılığa gələrək qısa adı TANAP olan layihənin reallaşdırılması üçün sənədləri imzaladılar. Azərbaycanın 80 faiz paya malik olduğu bu layihənin maliyyələşdirilməsi hər iki dövlətin imkanı daxilindədir və hansısa bankların qapılarını döyməyə ehtiyac yoxdur! Türkiyə ərazisindən keçən sayca dördüncü olsa da, daxili imkanlar hesabına maliyyələşdirilən ikinci layihə sayılan TANAP böyük faydalığa və perspektivə malikdir. Hazırda Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu, 100 ildən də çox müddətə kifayətdir. Üstəlik, TANAP bütün tərəfdaşlar üçün sərfəlidir. Kəmərin illik ixrac gücü 16 milyard kubmetrdir. Bunu asanlıqla 30 milyard kubmetrə çatdırmaq mümkündür. Qardaş Türkiyə kəmərdən 6 milyard kubmetr qaz və tranzit haqqı götürəcək. Dost Gürcüstan da eyni faydanı görəcək".

B.Sadıqov eyni zamanda iddia edib ki, TANAP Nabuccoya alternativ deyil:

"Amma Avropanın alternativ qaz təchizatçısı qismində çıxış edir. Xəzər hövzəsində yerləşən digər ölkələrin bu kəmər vasitəsilə öz qazlarını dünya bazarına çıxarmaq imkanı da yaranıb. Bütövlükdə bu layihələr bölgə ölkələrinin bir-biriləri ilə olan siyasi və iqtisadi əlaqələriylə yanaşı, Qərb dünyası ilə də münasibətlərini gücləndirməkdədir. Artıq həyata vəsiqə alan TANAP-ın Azərbaycan üçün faydaları daha çoxdur.Şaxələndirmə prosesini davam etdirən Azərbaycan "Şahdəniz-2" və gələcəkdə digər yataqlardan əldə ediləcək qazın da dünya bazarlarına çıxarılmasında yeni kəmərə sahib olur.Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatında üzərinə mühüm öhdəlik götürür.Bu layihə ilə Türkiyənin və Gürcüstanın rolu artır, gəlirləri çoxalır.İşğalçı Ermənistanın təcridolma prosesi daha da güclənir. Azərbaycan artıq regional dövlətdir və dünya dövlətinə çevrilmək istiqamətində inkişaf edir. Cənubi Qafqazın lider dövləti və bölgə iqtisadiyyatının 80 faizinin cəmləşdiyi ölkə olaraq artıq transmilli layihələri özü maliyyələşdirir, başqa dövlətlərə sərmayə yatırır. Belə layihələri gerçəkləşdirdikcə isə Azərbaycanın iqtisadi gəliri yüksəlir, siyasi nüfuzu və sanbalı artır, Asiya ilə Avropa arasında körpü funksiyası güclənir,həmçinin, öz sərvətlərini daha etibarlı və təhlükəsiz dünya bazarına çıxarmaqla diversifikasiya sahəsində yeni addımlar atır".

**KAMİL**

## Bakıda hava şəraitində ciddi dəyişiklik gözlənilmir

İyulun 19-da Azərbaycanda hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Temperatur rejimində mühüm dəyişiklik gözlənilmir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında iyulun 19-da hava şəraitinin dəyişkən buludlu, əsasən yağmursuz olacağı, axşam buludluluğun artacağı gözlənilir. Mülayim şimal-qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 30-35 dərəcə isti olacaq. Abşeronun çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 24-25, Zaqulba, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26, Türkan, Hövsan, Sahil, Şıxda 26-27 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında iyulun 19-da hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 31-36, dağlarda gecə 9-14, gündüz 20-25 dərəcə isti olacaq.

# "Azərbaycan ədəbiyyatında inkişaf yolları və aktual mövzular" Almaniyada müzakirə olunub

Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzində (AAKM) "Azərbaycan ədəbiyyatında inkişaf yolları və aktual mövzular" adlı tədbir keçirilib. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib. Berlin Humboldt Universitetinin "Azərbaycan tarixi kafedrası ilə birgə əməkdaşlıqda təşkil edilən məruzə axşamının qonağı Bakı Slavyan Universitetinin professoru Rəhilə Qeybullayeva olub. AAKM-nin icraçı direktoru Samira Patzer-İsmayılova tədbir iştirakçılarını salamlayaraq məruzə axşamının qonağını təqdim edib. S. Patzer-İsmayılova çıxışında Azərbaycan xalqının mənəviyyatında ədəbiyyatın önəmli rolunu vurğulayıb: "Ədəbiyyat və ədəbi mövzular Azərbaycan xalqının mənəviyyatının, ruhunun ayrılmaz bir hissəsidir. Qloballaşma dövründə dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir insan müasir texnikanın köməyi ilə hər bir informasiyaya yiyələnməyə qadirdir. Lakin mütəxəssislə canlı təmasda olaraq bu informasiyaları və yenilikləri ondan eşitmək, fikir mübadiləsi aparmaq intellektual insan üçün çox dəyərlidir".

Daha sonra professor R. Qeybullayeva "Azərbaycan ədəbiyyatında inkişaf yolları və aktual mövzular"a dair məruzə ilə çıxış edib.

O, Azərbaycan ədəbiyyatının tədqiqi, tarixi haqqında danışıb, milli ədəbiyyat məfhumunu əsas götürərək onu müxtəlif ölkələrin milli ədəbiyyatı ilə müqayisə edib. O, Azərbaycanın müstəqilliyinin bərpasından sonra Azərbaycan ədəbiyyatı sahəsində aparılan tədqiqat işləri və bu sahədə müxtəlif ölkələrin universitetləri ilə birgə təşkil edilən elmi konfranslar haqqında məlumat verib. Professorun məruzəsindən sonra fikir mübadiləsi aparılıb və məruzəçi verilən sualları cavablandırıb. Tədbirdə Berlin Humboldt Universitetinin Azərbaycan tarixi kafedrasının rəhbəri professor Aux, Almaniyadakı Azərbaycan səfirliyinin əməkdaşları, Almaniyadakı Azərbaycan diaspor nümayəndələri iştirak ediblər. Xatırladaq ki, professor Qeybullayeva bir müdət öncə Berlin Humboldt Universitetinin Azərbaycan tarixi kafedrasında "Hüseyn Cavid. Stalinizm dövründə ədəbi talelər" adlı ingilis dilində açıq mühazirə oxuyub.

**S.MÜRVƏTQIZI**

# *Jalə Əliyeva:* " Həsən bəy Zərdabi bu günə qədər öz davamçılarından az tədqiq olunub"

"Azərbaycan jurnalistikasının banisi, böyük mütəfəkkir Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi ilə bağlı verdiyi sərəncama görə ölkə Prezidentinə öz adımdan və təmsilçisi olduğum Zərdabi yurdunun insanları adından bir daha dərin minnətdarlığımı bildirirəm". Bunu mətbuata açıqlamasında millət vəkili, filologiya elmləri doktoru Jalə Əliyeva dilə gətirib. Onu da qeyd edək ki, Həsən bəy Zərdabinin yubileyinin dövlət səviyyəsində qeyd olunması yönündə müvafiq addımların atılması ilə bağlı daha çox fəallıq nümayiş etdirən və buna cəhd göstərən millət vəkili J.Əliyeva olub. Millət vəkilinin qeyd etdiyinə görə, Həsən bəy Zərdabinin yubileyinin dövlət səviyyəsində qeyd olunmasına böyük və zəruri ehtiyac var idi. J.Əliyeva bildirib ki, çünki sözügedən şəxs Azərbaycan ictimai fikrinin parlaq nümayəndəsidir və öz sağlığında tarix yaradan şəxsiyyət, böyük bir məktəbin banisidir. "Bu məktəbin ondan sonra çox sayda nümayəndələri olub, bu gün də var və çox təəssüflər olsun ki, həmin nümayəndələr bu günə qədər bu məktəbin yaradıcısından daha çox tədqiq ediliblər, daha çox porulyarlıq qazanıblar. Ona görə bu tarixi əhəmiyyətli sərəncam bütün ədəbiyyatsevərləri, jurnalistlər ordusunu, o cümlədən, təmsilçisi olduğum Zərdabi yurdunun hər bir sakinini çox sevindirir və bunun üçün biz dövlət başçısına minnətdarıq. Eyni zamanda hesab edirəm ki, bu sərəncamdan sonra Həsən bəy Zərdabinin ona layiq səviyyədə tədqiq olunması və cəmiyyətimizə, müasir gəncliyimizə dolğun, müfəssəl çatdırılması istiqamətində işlər daha da sürətlənəcək "- deyə, J.Əliyeva sonda sözlərinə əlavə edib.

**KAMİL**

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# “Göyərçin” jurnalı – Azərbaycan milli uşaq mətbuatının parlaq səhifəsi




*Zöhrə FƏRƏCOVA*



“Göyərçin” jurnalının 1991-1996-cı illərdə nəşr olunan sayları bir qovluğa yığılıb. O illərdə bu jurnalın bəzən 2-3 sayını birləşdirməli olublar. Rafiq Yusifoğlu o günləri xatırlayır: “Jurnalın bəzən bir neçə sayını çıxara bilmirdik. Hətta kiçik formatda, bəzən rəngə pul çatmadığından ağ-qara çap edirdik. Xarici səfirliklərin köməkliyi ilə “Göyərçin”in başqa dillərdə nəşr edildiyi vaxtlar da oldu. Ancaq “Göyərçin”in nəşrinin dayanmasına yol vermədik. Hikmət Ziya deyirdi: “Bura müqəddəs yerdir. Kənar adamları bura qoymayın”. “Göyərçin” öz ənənəsi olan jurnaldır. Mən televiziyada işləyəndə Tofiq Mahmud vəfat etdi. O, məni bu jurnala qaytarıb gətirməyi vəsiyyət etmişdi. Mən televiziyaya gedəndə də, Tofiq müəllim buna razı deyildi. Deyirdi, gücüm çatmır, mən məsul katib olum, sən baş redaktor. O mənada gücü çatmırdı ki, ortaya başqa qayğılar çıxmışdı. Bizdə bir müsahib işləyir, Arif Hüseynovla məni göstərib yarızarafat, yarıgerçək deyir: “Xalq rəssamı, professor jurnal daşıyır”. Mən bu yaşımda məktəblərə jurnal daşıyıram. Kim daşımalıdır? Özün getməyəndə olmur. Fədailik edirik. Buna görə gileylənmirəm. Tofiq Mahmud baş redaktor olanda deyirdi ki, o qədər istəyənlər olur, amma bura işə götürmürəm, bizə işləyə bilən, can yandıranlar lazımdır. “Göyərçin”də onu çox sevən, istedadını, bacarığını, zamanını böyük həvəslə bu jurnalın fəaliyyətinə həsr edən insanlar çalışıb. Biz də çalışırıq, əlimizdən gələni edirik ki, bu jurnalı yaşadaq”.

Bu gün Azərbaycanda uşaqlar üçün nəşr olunan mətbuat orqanlarının sayı az deyil. Bu da onların satışına təsirsiz ötüşmür. Rafiq Yusifoğlu bazar iqtisadiyyatı dövründə yaşasaq da, uşaq mətbuatını bazara çevirməməyi vacib hesab edir: “Uşaq mətbuatı birbaşa tərbiyə məsələsi ilə bağlıdır. Mən belə düşünürəm ki, tərbiyə işini bazara döndərmək olmaz. Uşaq mətbuatını digər mətbuatdan fərqləndirən spesifik cəhət bundan ibarətdir. Uşaq mətbuatını bazar tənzimləməməlidir. Tərbiyə məsələsini özbaşına buraxmaq olmaz. Uşaqları özbaşına buraxsan, çoxu heç məktəbə getməz”.

(Əvvəli ötən sayımızda)

“Göyərçin” jurnalının illik abunə qiyməti 12 manatdır. Rafiq Yusifoğlunun söylədiyi kimi, bu, bir uşaq oyuncağının qiymətidir: “Günah birbaşa valideynlərdədir. Bu gün hətta ibtidai sinif şagirdlərinin də mobil telefonları var. Bir həftəyə, bir aya 10 manatlıq kontur işlədirlər. Bunu onlara valideynləri alır. Amma uşaqlarının intellektual inkişafı, maariflənməsi barədə düşünmürlər. Hərə öz övladı üçün bir uşaq jurnalına və ya qəzetinə abunə yazılsın, görsünlər buna dəyər, ya yox”.

Uşaq zehninə yazılan hər kəlmə ağ kağız üzərində yazılan yazıya bənzəyir. “Göyərçin” jurnalının baş redaktoru










Azərbaycanda fəaliyyət göstərən uşaq mətbu orqanlarından danışarkən bu məsələni xüsusi vurğulayır: “Şair Məhəmmədhüseyn Şəhriyar deyir: “Bizdən qabaqdadır avropalılar, İşi iş bilənə tapşırır onlar”. İşi iş bilənə tapşırmaq lazımdır. Uşaq yazıçısı, pedaqoq olmayanın uşaq mətbuatında çalışıb, uğurlu işlərə imza atacağına inanmıram. Ola bilər uşaq jurnalına rəhbərlik etsin. Ancaq uşaq mətbuatında çalışanlar uşağın yaş psixologiyasını, yaş xüsusiyyətlərini, hansı sözü işlətməyin mümkün olub-olmadığını bilməlidir. Bir məsələ də var. Bu gün bəzi uşaq mətbuat orqanlarına baxanda oxucularını müəyyənləşdirə bilmirsən. Məktəbəqədər uşaqlar üçün nəzərdə tutulub, amma görürsən, 7-8-ci sinif şagirdlərinin düşüncələrinə, maraqlarına uyğun materiallar verir. Yaxud yeniyetmələr üçün nəşr edilir, içərisində 1-2-ci sinif şagirdlərinin maraq dairəsini əhatə edə biləcək yazılar dərc olunub. Uşaq mətbuatının nəşri ilə məşğul olanlar bu məsələni daim diqqətdə saxlamalıdırlar. Bizim jurnal məktəbəqədər və I-VI sinif şagirdləri üçün nəzərdə tutulub. Oxucularımız həyata baxışı, dünyagörüşü formalaşmaqda olan uşaqlardır. Bizim borcumuzdur ki, onları əyləndirməklə, başlarını qatmaqla kifayətlənməyək, uşaqların maariflənməsində, gələcəyin vətəndaşları kimi formalaşmalarında valideynlərə, müəllimlərə kömək edək”.

Rafiq Yusifoğlu “Göyərçin”in bu jurnalın səhifələrində təsadüfi yazıların getməməsinə çalışdıqlarını bildirir: “Göyərçin”in istənilən sayını açıb baxmaqla onun nələri diqqətdə saxladığını, uşaqların maraqlarını necə yönəltdiyini görmək olar. Jurnalda Azərbaycanın klassik şair və yazıçılarının əsərlərindən nümunələr veririk. “Göyərçin”də bir zamanlar öz əsərlərini dərc etdirmiş, bu gün artıq həyatda olmayan sənətkarları yaddan çıxarmırıq. Müasir şairlərin, yazıçıların əsərlərinə də “Göyərçin”in hər sayında yer verilir. Bir də bizim üçün əsas olan onların tanınmış, yaxud tanınmamış olması deyil, istedadlı olmalarıdır. İstedadsız adamların yazılarını jurnalda çap etməməyə çalışırıq. İnciyib gedənlər də olur. Özləri bilərlər”.

Jurnalın ilk saylarından qarşıya qoyduğu məqsədlərdən biri də dünya ədəbiyatının ən dəyərli nümunələri ilə azərbaycanlı uşaqları tanış etməkdir. “Göyərçin”in hər sayında maraqlı tərcümə əsərləri təqdim edilir. Uşaqları sevindirmək, əyləndirmək üçün də jurnalda xüsusi “Özün rənglə”, “Fərqi tap” və digər guşələr yaradılıb. Ancaq həmin səhifələr də elə hazırlanır ki, balaca oxucular həm də müəyyən məlumatlar əldə edə bilsinlər.

“Göyərçin”nin baş redaktoru Rafiq Yusifoğlunun bir ideyası da təqdirəlayiqdir. Onun təşəbbüsü 1997-ci ildən “Göyərçinin kitabxanası” seriyasından 5 min tirajla kitablar çap olunur. Bu kitablar jurnalın digər saylarından həcminə, formatına, qiymətinə görə deyil, səhifələrində toplanan ədəbi-bədii əsərlərlə fərqlənir. Rafiq Yusifoğlu deyir: “Biz bacardığımız qədər çalışırıq ki, oxucularımıza maraqlı jurnal təqdim edək. Elə bilirlər yoxuq, amma görürsüz ki, varıq. Bu jurnalı yaşatmaq üçün bacardığımızı edirik. “Göyərçin” bu gün dövlətin maliyyə dəstəyi ilə nəşr olunur. Problemlər var. Amma bizim üçün sevindirici hal budur ki, bütün çətinliklərə rəğmən bu jurnal yaşayır”.

Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub



## *Sadıq Sadıqov:* "Gəlin, komandanı bir-birinə vurmayaq"



***“Neftçi”nin prezidenti Sadıq Sadıqov Çempionlar Liqasının II təsnifat mərhələsi çərçivəsində “Zestafoni” üzərində qazanılan 3:0-lıq qələbədən sonra müsahibə verib.***

***— Öncə klub prezidenti kimi oyuna münasibət bildirərdiniz...***

— İlk öncə, sizin hamınıza öz minnətdarlığımı bildirirəm. Çünki azarkeşlərin stadiona gəlməsində jurnalistlərin də böyük rolu oldu. Stadionda həqiqətən anşlaq yaşandı. Baxmayaraq ki, yollarla bağlı bəzi problemlər oldu, tıxaclar nəticəsində azarkeşlər oyuna gecikdilər, amma bununla belə, bizə böyük dəstək oldular. Az öncə qeyd etdiyim kimi, bu dəstəkdə sizin də böyük əməyiniz oldu, saytlarda, qəzetlərdə öz yazılarınızla azarkeşləri stadiona dəvət etdiniz.

***— Artıq demək olar, “Neftçi” növbəti mərhələ məsələsini həll elədi?***

— Yox, hələ onu demək olmaz. Çünki hələ bizi qarşıda daha bir çətin oyun gözləyir və həmin oyuna çox ciddi hazırlaşacağıq, buna vaxtımız da var. Bildiyiniz kimi, komandaya 7 yeni oyunçu gəlib. Onların eləsi var ki, bu gün ikinci, üçüncü dəfədir “Neftçi”nin formasında meydançaya çıxırdı. Hələ komanda tam olaraq, bir-birinə uyğunlaşmayıb. Yəqin ki, gələcək oyunlarda bunu da görəcəyik. Çalışacağıq ki, uğurlu çıxışımızla Azərbaycan xalqını sevindirək.

***— Bu cür hesab gözləyirdiniz?***

— Xeyr. Yeri gəlmişkən, bu qələbəmizi baş məşqçimiz, hazırda xəstəxanada olan Böyükağa Hacıyevə həsr edirik. İnanıram ki, bu oyun onun şəfa tapmasında rol oynayacaq.

***— Sizcə, “Neftçi” bu il qrup mərhələsinə düşə biləcək?***

— Allahın qisməti.

***— Bu mərhələni keçəcəyiniz halda yeni transferlərə ehtiyac görəcəksiniz?***

— Xeyr, yeni transferə ehtiyac yoxdur. Sadəcə, bu komandaya bir qədər vaxt lazımdır ki, birlikdə oynayıb stabilləşsin. Hələ qarşıda “Zestafoni” ilə cavab qarşılaşmamız var. Bu mərhələni keçək, sonra digər məsələlər haqqında düşünərik. İndidən heç bir proqnoz vermək olmaz. Hər şeyi zaman göstərəcək.

***— Yeni transferlərinizin oyununu necə dəyərləndirərdiniz?***

— Yeni transferlərimizlə bağlı bütün məlumatları vermişik, hamısı səviyyəli oyunçulardır, öz ölkələrinin milli komandalarının şərəfini qoruyurlar. Düzdür, bu oyunda Avstriyadakı toplanışda olduğu kimi oynamadılar, amma mən onlara inanıram.

***— Bəs, onların içərisində ən çox bəyəndiyiniz hansı oldu?***

— Gəlin, komandanı bir-birinə vurmayaq. Komanda olaraq oyundan razı qaldım, mənə ləzzət elədi.

## *“Zestafoni”nin kapitanı:* “İndiki “Neftçi” daha güclüdür”



**“Zestafoni”nin kapitanı Tornike Aptsiauri Avropa Liqasının II təsnifat mərhələsi çərçivəsində “Neftçi”yə qarşı keçirilən oyundan (0:3) sonra Qol.Az-a müsahibə verib.**

***— Oyunla bağlı fikirlərin necədir?***

— Çox pis oynadıq. Buraxılan qollarda uşaq səhvləri etdik. Neyləmək olar? Artıq bu oyun geridə qaldı. İndi qarşıda cavab matçı var. Həmin oyuna kimi toparlanmalıyıq. Əlimizdən gələni edəcəyik ki, uğurlu nəticə qazanaq.

***— Çoxları artıq “Neftçi”ni növbəti mərhələdə görür. Həqiqətən də belə oyunlarda ilk qarşılaşmaların bu cür hesabla yekunlaşması qalib tərəfə böyük üstünlük verir.***

— Əlbəttə, bizim üçün çox çətin olacaq. Amma futbolda mümkünsüz heç nə yoxdur.

***— Oyunun gedişində baş məşqçi səni əvəzlədi. Bu nə ilə əlaqədar idi? Zədən vardı, yoxsa?***

— Zədəm var idi. Özünüz də gördünüz ki, oyunun gedişində zədələndim. Sonradan isə ayağımda ağrılar oldu və oynayanda bunu hiss edirdim.

***— O zaman belə çıxır ki, öz istəyinlə əvəzləndin?***

— Yox, baş məşqçi əvəzlədi. Bu, onun taktiki gedişi idi.

***— Matçın süni örtüklü meydançada keçirilməsi oyununuza təsir elədi?***

— Şəxsən mən bu arenanı, onun ot örtüyünü bəyəndim. Yəni, məğlubiyyətimizə görə, qazonu günahlandırmaq fikrim yoxdur.

***— Bir vaxtlar şərəfini qoruduğun “Qəbələ” ilə münasibətlərin var?***

— Əlbəttə. Tez-tez əlaqə saxlayırıq, hal-əhval tuturuq.

***— “Qəbələ”də oynadığın dönəmlərdə də “Neftçi”yə qarşı çox oynamısan. Səncə, “Neftçi” onda güclü idi, yoxsa indi?***

— Məncə, indiki “Neftçi” daha güclüdür.

**Anar XANLAROV**

## Samir Əliyev rəsmən futboldan getdi



Azərbaycan futbolunun istedadlı nümayəndələrindən biri, müxtəlif klubların və Azərbaycan milli komandasının heyətində uğurla çıxış etmiş Samir Əliyev futbolçu karyerasını rəsmən başa vurub. UEFA Çempionlar Liqasının ikinci təsnifat mərhələsi çərçivəsində “Dalğa Arena”da keçirilmiş “Neftçi” — “Zestafoni” oyununun fasiləsində Samir Əliyevə AFFA-nın və “Neftçi” PFK-nın hədiyyələri verilib. AFFA-nın hədiyyəsini İcraiyyə Komitəsinin üzvü, Regional Futbol Federasiyaları İctimai Birliyinin prezidenti İsgəndər Cavadov, “Neftçi” PFK-nın hədiyyəsini isə klubun vitse-prezidenti Tahir Süleymanov təqdim edib.

## “Xəzər Lənkəran”ı yaxşı təhlil etmişik”



“Daha əvvəlki rəqibimiz Qazaxıstanın “Jetısu” klubuna nisbətən “Xəzər Lənkəran” haqda kifayət qədər məlumat əldə etmişik. “Xəzər Lənkəran”ın Estoniyanın “Nomme Kalyu” klubu ilə hər iki oyununu məşqçimiz Yaçek Terpilovski izləyib. Məhz onun sayəsində rəqibimizi yaxşı təhlil etmişik”.

Polşanın “Lex” klubunun baş məşqçisi Marius Rumak belə deyib. M.Rumak daha sonra “Xəzər Lənkəran”ın heyətində çəkindikləri futbolçuların adlarını da açıqlayıb: “Xəzər Lənkəran”ın 8 oyununun videoyazısı əldə etmişik. Onların heyətində yerli və səviyyəli legionerlər çıxış edir. Rəqibin heyətində əsas futbolçu və lider onların qapıçısıdır (Kamran Ağayev — red). Meydanda isə rumıniyalı futbolçu Adrian Piti qeyd edə bilərəm. “Roma”nım sabiq futbolçusu sol ayağını çox yaxşı işlədir. Ona görə də Pitə qarşı diqqətli oynamalıyıq”.

Azərbaycana yolun uzaq olmasından gileylənən Rumak, bu haqda belə danışıb: “Biz Bakı hava limanında enib, daha sonra maşınla Lənkərana 300 km məsafə qət etməliyik. Təbii ki, bu da çox yorucu olur. Ümid edirəm ki, Azərbaycanda yollar Qazaxıstana nisbətən daha yaxşı vəziyyətdədir”.

## Fabio Kapello Azərbaycanın oynayacağı qrupdan danışdı

Dünya çempionatının seçmə mərhələsində Rusiya millisinə rəhbərlik edəcək Fabio Kapello yeni komandasını DÇ-2014-ün final mərhələsinə çıxarmaq niyyətində olduğunu açıqlayıb. “Marca” qəzetinə müsahibəsində o, bildirib ki, ötən həftənin cümə günü Rusiya Futbol İttifaqıyla razılığa gəliblər. “Amma danışıqlar zamanı müəyyən məsələlər ortaya çıxmışdı. Kimlərsə yerli mütəxəssisin komandaya gətilməsini istəyirdi. Prezident isə mənim layihəmi bəyəndi”.

Fabio Kapellonun sözlərinə görə, DÇ-2014-ün seçmə mərhələsində onlar çətin qrupa düşüblər: “Biz Portuqaliya, İsrail, Şimali İrlandiya, Azərbaycan və İsrail ilə yarışacağıq. İnanıram ki, Rusiya millisi bu qrupdan çıxa biləcək”.

## *Cavid İmamverdiyev:* "Biz məsələnin hələ 50 faizini həll etmişik"

“Biz əla oynadıq. Matça yaxşı köklənmişdik. Qələbəmiz ədalətli idi”. Bu sözləri Çempionlar Liqasının “Neftçi” — “Zestafoni” (3:0) oyunundan sonra matçdakı ilk qolun müəllifi Cavid İmamverdiyev deyib. “Bu oyuna qədər Avstriyada yaxşı toplanış keçmişdik. Onun bəhrəsini gördük. 3:0 hesabıyla qalib gəlsək də, demək olmaz ki, mərhələni adlamışıq. Biz məsələnin hələ 50 faizini həll etmişik. Qalan işlərimizi də Gürcüstanda yoluna qoymalıyıq” — deyə o qeyd edib.

Vurduğu qola gəlincə, İmamverdiyev bildirib ki, bu, təkcə onun özünün yox, bütün komandanın zəhmətidir.

## *Ronaldo:* "La Liqa dünyanın ən çətin çempionatıdır"

“Real” (Madrid) klubunun ulduz futbolçusu Kriştiano Ronaldo ötən mövsümü dəyərləndirib. Portuqaliyalı futbolçu İspaniya La Liqasının dünyanın ən çətin çempionatı olduğunu bildirib: “Ötən mövsüm La Liqanı qazanmaq ilin ən önəmli hadisəsi idi. “Barselona” kimi bir komandanı 9 xal qabaqlamaq heç də asan deyildi. Məncə, La Liqa dünyanın ən çətin çempionatlarından biridir. Ancaq biz bunu bacardıq. Təəssüf ki, ötən mövsüm Çempionlar Liqasında “Bayern”ə penaltilər seriyasında məğlub olduq. İlk penalti zərbəsini mən vurmuşdum və bundan yararlana bilməmişdim. Futbolda hər şey olur. Hər kəs bilir ki, penaltilər seriyası lotoreyadır”.

“Neftçi” PFK-nın kollektivi “Neftçi” İSM-in icraçı direktorunun müavini Dadaşov Firudin Tacəddin oğluna

**ANASINN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlı verir.

**Allah rəhmət eləsin!**

**Təcili ev satılır!**

Sahil bağının yanı, Xaqani küç. 20-də yerləşən 4 mərtəbəli binanın 4-cü mərtəbəsində 3 otaqlı təmirli mənzil satılır. Evin hər cür şəraiti var. Sənədləri qaydasındadır. Özüm satıram. Qiyməti 130 min manatdır. Qiymətində endirim mümkündür.

**Əlaqə telefonu: 0705655823, Vaqif**

**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2447
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.